# “Kapital Bank” Açıq Səhmdar Cəmiyyəti

# İstiqrazlar üzrə Baza Emissiya Prospektinin

# Yekun Şərtlər

# №2

**2024**

**BƏYANAT**

Bu Yekun Şərtlər Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş Baza emissiya prospektinin əlavəsidir və Baza emissiya prospekti ilə birgə oxunmalıdır.

Baza emissiya prospekti qanunvericiliklə nəzərdə tutulmuş vahid məlumat resursunda (Azərbaycan Respublikasının Mərkəzi Bankı - Məlumatların Elektron Açıqlanması Sistemi www.cbar.az/meas), Bakı Fond Birjası ("Kapital Bank" ASC • ww.bfb.az) və emitentin rəsmi internet səhifələrində (www.kapitalbank.az) açıqlanmışdır.

Bu Yekun şərtlər Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş Baza emissiya prospekti üzrə istiqrazların ikinci buraxılışıdır.

**"Kapital Bank" ASC-nin İdarə Heyətinin sədri,**
**Baş İcraçı Direktor**
**Hüseynov Fərid Arif oğlu**

**Tarix: 27.09.2024**

**"Kapital Bank" ASC-nin İdarə Heyətinin üzvü,**
**Baş Maliyyə İnzibatçısı**
**Məmmədov Emin Ağaverdi oğlu**

**Tarix: 27.09.2024**

# M Ü N D Ə R İ C A T

XÜLASƏ ........................................................................................................................ 4
1. Xəbərdarlıqlar ........................................................................................................ 4
2. İstiqrazların buraxılışı haqqında yekun şərtlər ....................................................... 5

# XÜLASƏ

**1. Xəbərdarlıqlar**

**1.1** Bu buraxılış Baza emissiya prospektinə əsasən ümumi məbləği 50,000,000 (əlli milyon) ABŞ dolları olan istiqrazların ikinci buraxılışıdır;

**1.2** Qiymətli kağızlara investisiya etmək barədə hər-hansı bir qərar investorun Baza emissiya prospektini və bu yekun şərtləri oxuduqdan sonra həyata keçirilməlidir;

**1.3** Baza emissiya prospektində və bu yekun şərtlərdə olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Baza emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyır.

## 2. İstiqrazların buraxılışı haqqında yekun şərtlər

**2.1. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı
**2.2. Təklif edilən istiqrazların sayı və nominal dəyəri:**
**İstiqrazların sayı:** 200,000 (iki yüz min) ədəd;
**Nominal dəyəri:** 100 (bir yüz) ABŞ dolları;
**2.3. İstiqrazların valyutası:** ABŞ dolları (USD)
**İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:** İstiqraz mülkiyyətçiləri aşağıdakı hüquqlara malikdirlər:

- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 7 (yeddi) faiz həcmində almaq;
- İstiqrazların ödənilməsi zamanı istiqrazların nominal dəyərini Emitentdən almaq;
- Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün Milli Depozit Mərkəzinə müraciət etmək;
- Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda, əmanətçilərin və bankın digər kreditorlarının tələbləri tam ödənildikdən sonra istiqrazların nominal dəyərinin və həmin nominal dəyərə hesablanmış, lakin ödənilməmiş faizləri tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş subordinasiya borc öhdəliklərinin mahiyyətinə zidd olmayan digər hüquqlar.

İstiqrazlar subordinasiya borc öhdəliyi şərtilə buraxılır. “Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları”nın 2.1.11-ci maddəsinə əsasən subordinasiya borc öhdəlikləri, emissiya şərtlərinə görə ödəmə vaxtı çatdıqda ödənilən, bankın aktivlərinin girovu ilə təmin edilməyən, mülkiyyətçisinin tələbi ilə geri alınmayan, son ödəmə müddəti başa çatana kimi bu öhdəlik üzrə ödəmə (faiz və ya əsas borc) baş tutmadığı təqdirdə bankı müflis elan etmək və ya ləğv etmək hüququ verməyən, bank ləğv edilərkən onların ödənilməsi əmanətçilərin və bankın digər kreditorlarının tələbləri tam ödənildikdən sonra icra olunan öhdəliklərdir. Emitent istiqrazlar üzrə faiz ödənişlərini təxirə salmaq hüququna malikdir. Emitentin kapital adekvatlığı göstəricilərinin ARMB-nin qaydaları ilə müəyyən göstəricilərinin minimum səviyyədən aşağı olduğu halda Emitent istiqrazlar üzrə öhdəliklərinin icrasını təxirə salmaq hüququna malikdir.

**2.4. Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas və faiz borcun ödənilməsi ilə bağlı iddia müddətləri Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.
**2.5. İstiqrazlar üzrə ödənilməli faizlər:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 7 (yeddi) faiz təşkil edir.

**2.6. Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

**2.7. Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

**2.8. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Təklif edilmiş istiqrazlar təmin edilməmişdir.

**2.9. İstiqrazların geri satın alınmasının şərtləri:** İstiqrazların tədavül müddəti ərzində onların geri satın alınması ilə bağlı Emitent tərəfindən öhdəlik nəzərdə tutulmayıb.

**2.10. İstiqrazların geri çağrılma şərti:** İstiqrazlar yerləşdirildiyi tarixdən 2 il sonra Emitent tərəfindən istiqrazların geri çağrılması hüququ qüvvəyə minəcəkdir. Emitent bu hüquqdan istifadə etdikdə istiqrazların geri çağrılması haqqında geri çağrılma tarixindən 1 ay öncədən istiqraz mülkiyyətçilərinə Emitentin və BFB-nın rəsmi saytları vasitəsilə məlumat veriləcəkdir. Bu zaman hər müştərinin mülkiyyətində olan payına mütənasib qaydada istiqrazların nominal dəyəri və çağırılan günə toplanmış faizlər ödəniləcəkdir.

**2.11. Gəlirlilik dərəcəsi və onun hesablanması qaydası:** İstiqrazlar üzrə kupon gəlirliliyi illik 7 (yeddi) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$\boldsymbol{TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}}$$

**Burada:**

**TF –** Bir istiqraz üzrə toplanmış faizlər

**N –** Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) ABŞ dolları

**D –** İstiqrazların illik faiz dərəcəsi: 7 (yeddi)

**G –** İstiqrazlar üzrə faiz ödənişi dövrünün müddəti

**2.12. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcud deyil.

**2.13. İstiqrazların təklif qiyməti məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxs(lər) barədə məlumat:** Təklif qiyməti məlumdur.

**2.14. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Baza Emissiya Prospekti və hər bir buraxılış üzrə Yekun Şərtlər dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların Bakı Fond Birjasında listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

Bakı Fond Birjası yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir.

Bakı Fond Birjasının fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar Bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər normativ hüquqi normativ aktları və Bakı Fond Birjasının nizamnaməsi və daxili qaydaları ilə tənzimlənir.

**2.15. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

Emissiyada iştirak edən şəxslərin maraqlarının toqquşması mövcud deyildir.

**"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti (BFB).** Emissiya prosesində iştirak edən BFB yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, listinqdə saxlanılması, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC istiqrazların listinqə daxil edilməsi və listinqdə saxlanması, İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsini həyata keçirir.

Bakı Fond Birjasının "Kapital Bank" ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir. BFB qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızların listinqindən öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**Milli Depozit Mərkəzi (MDM).** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**"PAŞA Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti**

"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC 09.03.2016-cı il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş İSN/L-640/2016, 088806 saylı

müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. “Kapital Bank” ASC tərəfindən buraxılacaq istiqrazların anderraytinqi və yerləşdirilməsi “PAŞA Kapital İnvestisiya Şirkəti” QSC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətlərin göstərilməsinə görə emitentdən xidmət haqqı tutacaqdır. “Kapital Bank” ASC-nin istiqrazlarının anderraytinqi və yerləşdirilməsi prosesində “PAŞA Kapital İnvestisiya Şirkəti” QSC-nin marağı kommersiya xarakterlidir.

**2.16. Təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** Bu istiqrazların buraxılışı mütəşəkkil kapital bazarından sərbəst vəsaitlərin cəlb edilməsi ilə bankın aktivlərinin və pul vəsaitlərinin resurs bazasının diversifikasiyasının artırılması, eləcə də Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının inkişafına töhfə vermək məqsədi ilə həyata keçiriləcəkdir.
Emissiyadan əldə olunan vəsait bankın strateji hədəflərinin reallaşdırılması, bazar nüfuzunun və bazar payının artırılması, eləcə də xarici mühitdə yaranacaq hər cür dəyişikliyə cəld və effektiv uyğunlaşmanın təmini üçün lazımi resursların və mexanizimlərin təkmilləşdirilməsinə investisiya olacaq. Əlavə olaraq, ölkə daxilində sərfəli və keyfiyyətli bankçılıq xidmətləri təklif etməklə regionlarda real iqtisadiyyatın maliyyələşdirilməsi, bölgələrdə iqtisadi rifahın və məşğulluğun artırılmasına müsbət təsir göstərəcəkdir. Emitentin fəaliyyəti nəticəsində əldə edilmiş gəlirlər Emitentin kapitallaşdırılmasına yönəldiləcək və pul vəsaitlərinin resurs bazasının fərqləndirilməsinə imkan yaradacaqdır.

**2.17. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:** Nəzərdə tutulmayıb.

**2.18. Əldə olunan vəsaitlərin istifadəsi, digər müəssisələrinin alışını maliyyələşdirmək üçün və ya borcları qaytarmaq, azaltmaq, restrukturizasiya etmək üçün və ya başqa aktivləri əldə etmək üçün istifadə olunması barədə məlumat:** Əldə olunacaq vəsait bu bənddə göstərilən istiqamətlər üzrə istifadə olunmayacaqdır.

**2.19. İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:** Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tauer.

**2.20. İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olunduqda):** İllik 7 (yeddi) faiz

**2.21. İstiqrazların və faizlərin ödənilmə tarixi və müddəti**: İstiqrazlar üzrə illik faiz dərəcəsi 7 (yeddi) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül dövründə (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 7 (yeddi) il müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər 30 (otuz) təqvim gününün başa çatması tarixindən növbəti 3 (üç) iş günündən gec olmayaraq ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

**2.22. Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazların yerləşdirilməsi zamanı pul vəsaitlərinin toplanması "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-nin hesablaşma agenti olan "PAŞA Bank" ASC vasitəsi ilə yerinə yetiriləcəkdir.

**2.23. İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** İstiqrazların emissiyası haqqında qərar (44 saylı protokoldan çıxarış) "Kapital Bank" ASC-nin Müşahidə Şurası tərəfindən 31 iyul 2024-cü il tarixində qəbul edilmişdir.

**2.24. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platforması üzərindən həyata keçiriləcəkdir. Yekun şərtlər Mərkəzi Bank tərəfindən qeydiyyata alındıqdan sonra abunə yazılışına 1 (bir) ay ərzində başlanılacaq və abunə yazılışı isə 30 (otuz) təqvim günü ərzində həyata keçiriləcəkdir.

Abunə yazılışı başa çatdıqdan sonra istiqrazların yerləşdirilməsinə 5 (beş) iş günü ərzində başlanılacaq və istiqrazların yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 (yeddi) iş günündən çox olmamaq şərti ilə tamamlanacaqdır. Qiymətli kağızların yerləşdirilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydalara əsasən tamamlanacaqdır.

**2.25. Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Baza Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Baza emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 (on) iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 (beş) iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem – www.cbar.az/meas), fond birjasının (www.bfb.az) və Emitentin internet səhifəsində (www.kapitalbank.az) açıqlanır və açıqlandığı tarixdən 15 (on beş) iş günü bitdikdən sonra qüvvəyə minir.

Emissiya prospektində edilmiş dəyişikliklərin açıqlanmasından əvvəl investisiya qiymətli kağızlarının alınması üzrə abunə yazılışına razılaşmış investorlar həmin dəyişikliklərin açıqlandığı tarixdən yeddi iş günü ərzində təkliflərini geri götürmək hüququna malikdirlər.

**2.26. Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem – www.cbar.az/meas) fond birjasının (www.bfb.az) və Emitentin internet səhifəsində (www.kapitalbank.az) açıqlanır.

**2.27. İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:**

2.27.1. **İstiqrazlara abunə yazılışının qaydası:** İstiqrazlara abunə yazılışı investorlar tərəfindən sifarişin Baza Emissiya prospektində və bu Yekun Şərtlərdə qeyd olunmuş anderrayterlərə (yerli lisenziyalı investisiya şirkətlərinə) təqdim edilməsi ilə həyata keçirilir. Abunə yazılışı üçün sifariş investor tərəfindən imzalanmalıdır. Hüquqi şəxslərin təqdim etdikləri sifariş onların səlahiyyətli şəxsi tərəfindən imzalanmalı və möhürlənməlidir. Sifariş təqdim edilərkən onun üzərində investisiya şirkətlərinin səlahiyyətli şəxsi tərəfindən sifarişin qəbul edildiyi tarix, vaxt, qeydiyyat nömrəsi, sifarişi qəbul edən şəxsin adı, soyadı qeyd edilir və uçota alınır. Abunə yazılışı sifarişləri uçota alınaraq, abunə yazılışı müddətində Anderrayter tərəfindən toplanır. Bakı Fond Birjasında istiqrazların yerləşdirilməsindən əvvəl toplanmış abunə yazılışı sifarişləri "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC tərəfindən investorlar arasında bölüşdürülür.

Toplanmış sifarişlərin (tələb) həcmi təklifdən az olarsa, hər bir investorun tələbini tam ödəməklə icra edilir. Toplanış sifarişlərin (tələblərin) həcmi təklifdən çox olarsa, təklif edilən istiqrazlarının sayının tələb olunan istiqrazların sayına nisbəti (əmsal) hesablanır. Hər bir investorun abunə yazılışı sifarişinin sayı bu əmsala vurularaq, alınan rəqəmin kəsr hissəsi aşağı yuvarlaqlaşdırılmaqla, rəqəmin tam hissəsi qədərində investora istiqraz bölüşdürüləcəkdir. Bundan sonra yarana biləcək yuvarlaqlaşdırma qalığı, investorların sifarişlərinin icraya qəbul edilmə tarixi və vaxtı (əvvəlinci sifarişdən sonrakına doğru) nəzərə alınmaqla, yaranmış yuvarlaqlaşdırma qalığı bitənə qədər istiqrazlar bir-bir ödənilməklə icra ediləcəkdir.

2.27.2. **Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənmiş artıq məbləğin geri qaytarılması qaydası və müddəti:** İnvestorlar abunə yazılışı üçün sifarişləri imzaladıqdan sonra abunə yazılışının bitməsinə 2 (iki) iş günü qalmış tarixə kimi sifarişlərini geri götürə bilərlər. Emissiya Prospektində dəyişikliklər edildikdə həmin dəyişikliklərin açıqlanmasından əvvəl İstiqrazların alınması üzrə abunə yazılışına razılaşmış investorlar qeyd olunan dəyişikliklərin açıqlandığı tarixdən 7 (yeddi) iş günü ərzində təkliflərini geri götürmək hüququna malikdirlər. Yerləşdirmə bitdikdən sonra, abunəçilər tərəfindən ödənmiş artıq məbləğin geri qaytarılması 3 (üç) gün ərzində investorun hesabına köçürülməsi təmin ediləcəkdir.

2.27.3. **Abunə yazılışının (investisiya etmək üçün qiymətli kağızların sayına və ya məcmu miqdarına) minimum və/və ya maksimum məbləğini:** Abunə yazılışı üzrə minimum və/ və ya maksimum məbləğlə bağlı məhdudiyyət yoxdur.

**2.28. İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** Kütləvi təklif edilən istiqrazlar, Bakı Fond Birjasında hərrac vasitəsilə deyil, abunə yazılışı üsulu ilə yerləşdiriləcək**.**

**2.29. İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların yerləşdirilməsi nəticəsində istiqrazlar investorların depo hesabına köçürüləcəkdir, pul vəsaitləri isə anderrayterin hesablaşma agentində ("PAŞA Bank" ASC) açılmış bank hesabına köçürüləcəkdir. Müvəqqəti cari hesabda olan pul vəsaitləri "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə uyğun olaraq istiqrazların yerləşdirməsi başa çatdıqdan dərhal sonra emitentin bank hesabına köçürüləcəkdir.

**2.30. İstiqrazların yerləşdirilməsinin başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və yerləşdirmənin xəbərdarlıq edilməzdən öncə başlaya bilib-**

**bilməməsi barədə məlumat:** Yekun şərtlər Mərkəzi Bank tərəfindən qeydiyyata alındıqdan sonra abunə yazılışının başlanma və bitmə tarixləri, eləcə də abunə yazılışı bitdikdən sonra 2 (iki) iş günü ərzində yerləşdirmənin başlanma tarixi “Bakı Fond Birjası” QSC-nin (www.bfb.az) və Anderrayterin internet səhifəsində (www.pashacapital.az) ictimaiyyətə açıqlanacaqdır.

**2.31. İstiqrazların təklif qiyməti:** İstiqrazların Abunə yazılışının qiyməti - Abunə yazılışı dövründə İnvestorlar tərəfindən sifarişlərin verilmə tarixindən və həcmindən asılı olmayaraq, istiqrazlar nominal qiyməti ilə yəni, 1 istiqraz 100 (bir yüz) ABŞ dollarına təklif olunur.

**2.32. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur.

İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

Xərclər: İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

- Bakı Fond Birjası - əqdin həcmindən 0.02%
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında;
- Bank köçürmə xərcləri – bankdan aslı olaraq dəyişir.

Yalnız fiziki şəxslərin ilkin bazar üzrə istiqraz alışı zamanı ödəməli olduğu xərclər (Bakı Fond Birjasının komissiyası, investisiya şirkəti komissiyası, Milli Depozit Mərkəzində hesab açılışı xərci) Emitent tərəfindən qarşılanacaq.

**2.33. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyasi və ünvanı). Xidmət haqqı.** İstiqrazların öhdəliyi götürmədən yerləşdirilməsi üzrə "PAŞA Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti anderrayter təyin edilmişdir.

"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC Lisenziyası: 09 mart 2016-ci il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş İSN/L-640/2016 nömrəli lisenziya

Hüquqi ünvanı: Bakı şəh., Lev Tolstoy küçəsi, 170

Faktiki ünvanı: Bakı şəh., Cəfər Cabbarlı küç, 44, Caspian Plaza 10-cu mərtəbə, AZ1065

Xidmət haqqı: Emitent ilə imzalanmış xidmət müqaviləsinə əsasən müəyyən olunacaqdır.

**2.34. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** "Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti. "Bakı Fond Birjası" QSC yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, istiqrazların abunə yazılışı formasında yerləşdirilməsi, həmçinin, təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də pay bazarı, borc alətləri bazarı, repo bazarı, törəmə maliyyə alətləri bazarı mövcuddur.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar Bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili qaydaları ilə tənzimlənir.

**2.35. Marketmeyker(lər) barədə məlumat:**

Mövcud deyil. Bazar şərtlərini nəzərə alaraq, Emitent istiqrazların likvidliyinin qorunması və ya artırılması məqsədi ilə market-meyker(ləri) cəlb edə bilər.

**2.36. Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:**

Kapital Banka Moodys və Standard&Poors reytinq agentlikləri tərəfindən verilən kredit reytinqləri aşağıdakı kimidir:

| Moodys | | Standard&Poor's | |
|---|---|---|---|
| Əsas kredit qiymətləndirilməsi | Ba3 | Uzunmüddətli kredit reytinqi | BB- |
| Uzunmüddətli bank depoziti | Ba2 | Qısamüddətli kredit reytinqi | B |
| Uzunmüddətli kontragent risk qiymətləndirilməsi | Ba1 | Reytinq proqnozu | Pozitiv |
| Reytinq proqnozu | Pozitiv | | |